

# GƏNCLƏR AYINDA ŞEİR

Fevral gənclər ayıdır. Qış isə şeir fəslidir. Çoxları düşünə bilər ki, şeir fəsli yazdır, amma mən əksinə iddialıyam. Çünki hansı fəsildə yazılmasından asılı olmayaraq, bu çılpaq fəsildə – qışda şeiri anlamaq, onun haqqında uzun-uzadı düşünmək, elə bilirəm, daha uyarlıdır. Yazıçılar Birliyin Gənclər Şurasının yeni tərkibi bu ilin yayında təsdiq olundu və biz – Gənclər Şurasının yeni üzvləri bir sıra tədbirlər həyata keçirdik. Silsilə tədbirlərimiz davam etməkdədir. Görülən işlər içərisində ən əsaslarından biri də "Ulduz" jurnalının yanvar sayının Gənclər Şurası tərəfindən nəşrə hazırlanmasıdır. Biz Gənclər Şurasının üzvləri olaraq düşündük ki, bizim hazırlayacağımız bu nömrə bütövlükdə şeirə – poeziyaya və ən əsası onun yaradıcılarına – şairlərə həsr edilsin. Nə üçün belə düşündük? Çünki günümüzdə zəif şeirlərin poetik əsər, təsadüfü cızma-qaraçıların şair kimi özünü tanıtdığı, əsl poeziyanın isə az-az təsadüf olunduğu bir zamanda bir jurnal daxilində başdan-başa şeirlər haqqında danışmaq qərarına gəldik. İstədik ki, bu soyuq fəsildə tamamilə şeirə bürünək.

Nömrəmizdə İspaniya, Türkiyə, Rusiya, İran, Qırğızıstan, ərəb və fars poeziyasından dəyərli tərcümələr və eləcə də araşdırma yazıları, "Söz" layihəsi şairlərinin şeirləri, Gənclər Şurasının üzvlərinin əsərləri, şeirşünaslığa aid mətnlər, sətri tərcümələr, şairlərin müsahibələri və s. rəngarəng materiallar oxuyacaqsınız.

Biz ədəbiyyatımızı Yazıçılar Birliyinin Gənclər Şurası olaraq milli və dünyəvi mənada dəyərləndiririk, klassiklərimizə, müasirlərimizə ehtiramla yanaşırıq, ədəbiyyatımızdakı təməl meyarları və yaradıcıları yüksək qiymətləndiririk. Jurnalın bu nömrəsi kiməsə həddən artıq dünya poeziyasına, yaxud gənclərə yönəlik görülə bilər, amma biz ümumi şeir mənzərəsini əks etdirmək üçün bu yolu tutduq. Əlbəttə, bir jurnal daxilindəki mətnlər bütün maraqları qarşılaya bilməz və bu çox təbiidir.

Biz sadəcə "Ulduz" jurnalının və onun redaktoru, gənc ədiblərin dostu – Qulu Ağsəsin bizə yaratdığı bu imkandan vicdanla, ədəbiyyat eşqi ilə müsbət mənada yararlanmağa çalışdıq. Oxuyacağınız mətnlər gənclər tərəfindən nəşrə hazırlanmışdır və mətnlərin seçilməsində onların maraq dairələri nəzərə alınmışdır.

Sonda AYB-nin Gənclər Şurası adından Birliyin sədri Anar müəllimə, Birliyin gənclərlə iş üzrə katibi Rəşad Məcidə, əlinizdəki jurnalın baş redaktoru Qulu Ağsəsə və kollektivinə gənclərə belə bir işdə şərait yaratdıqları üçün dərin təşəkkürümüzü bildiririk.

**Fərid Hüseyn**
*Azərbaycan Yazıçılar Birliyi*
*Gənclər Şurasının sədri*